# Qədim Gəncədə gənclik bayramı



**Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə Dövlət Filarmoniyasında "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda konfrans keçirildi.**

Toplantıda bildirildi ki, 2 fevral 1996-cı il Azərbaycan gəncliyinin həyatında yeni dövrün başlanğıcı olub– həmin gün ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycan gənclərinin ilk forumu keçirilib. Bir il sonra bu məclisin bir qrup iştirakçısı ilə görüşən Prezident Heydər Əliyev 2 fevralın ölkəmizdə Gənclər günü kimi qeyd olunması barədə sərəncam imzalayıb.

Qeyd edildi ki, ulu öndərin müəyyən etdiyi dövlət gənclər siyasətini bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva uğurla davam etdirirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov gəncləri bayram münasibətilə təbrik edərək onlara həyatın bütün sahələrində uğurlar arzuladı.

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov məlumat verdi ki, son 1 ildə tarixi günlərin və bayramların qeyd edilməsi, gənc nəslin vətənpərvər ruhda formalaşdırılması, dünyagörüşlərinin artırılması və maarifləndirilməsi məqsədilə 6,5 mindən çox gəncin iştirak etdiyi 130 tədbir keçirilib. Gənclərin quruculuq prosesində fəal iştirakı, təhsildə və idmanda uğurlar qazanması təmin edilib.

Gəncə gəncləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət səsləndirilib.

Məclisdə ictimai-siyasi həyatda fərqlənən gənclərə "Təşəkkürnamə"lər təqdim edilib. Bayram tədbiri yaradıcı gənclərin ifasında səsləndirilən şeir və musiqi nömrələri ilə başa çatıb.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

Xalq qəzeti .- 2023.- 3 fevral.- S.10.